# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1185-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627 (Cild I); 2024, № 1, maddələr 110, 124, № 9, maddələr 1061, 1067) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 3.3-cü bəndin birinci abzasına "tibbi müayinədən keçməyən şəxslər arasında," sözlərindən sonra "ikisindən biri və ya hər ikisi Azərbaycan Respublikası ərazisində qanunsuz olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər arasında," sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 3.3-1-ci bənd əlavə edilsin:

"3.3-1. Nikaha daxil olmağı arzu edənlərdən biri və ya hər ikisi əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olduğu halda onun (onların) Azərbaycan Respublikasının ərazisində qanuni əsaslarla olmasını və ya yaşamasını təsdiq edən sənədin surəti (bu Qaydanın 1.7-ci bəndinin ikinci və üçüncü cümlələrinin tələbləri nəzərə alınmaqla) ərizəyə əlavə edilir.".

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, " 24 " " dekabr " 2024-cü il

№ 534

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı
ÜMUMİ ŞÖBƏ